**2026-cı il üçün xərclər smetasının 222442 - “Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri” yarımmaddəsi üzrə Dövlət Statistika Komitəsinin inzibati binasının deratizasiya, dezinseksiya və dezinfeksiya olunması, su anbarının dezinfeksiya olunması xidmətlərinin, yaşıllıq sahəsi üzrə ağaclara göstəriləcək fitosanitariya xidmətlərinin satın alınması məqsədilə**

**KOTİROVKA SORĞUSU ELAN EDİLİR**

Sözügedən kotirovka sorğusu üzrə ehtimal olunan qiymət 30000,00 manatadək olduğuna görə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən satınalma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq orta və iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi Təchizatçı kimi iştirak edə bilərlər.

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (bundan sonra - Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və kotirovka sorğusu haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün kotirovka sorğusu iştirakçıları lazımi peşəkarlıq göstəricilərinə və işçi qüvvəsinə malik olmalıdırlar. Kotirovka sorğusunda iştirak etmək istəyənlər aşağıdakı məbləğdə istifadə və iştirak haqqını həmin portalın operatoruna ödədikdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər (əlaqələndirici şəxs Şahin Sadıqlı, telefon: (012) 377-10-70, daxili 22-47).

**İstifadə haqqı: 25,00 AZN**
**İştirak haqqı: 10,00 AZN.**

İştirak haqqının ödənilməsi yalnız “Asan Ödəniş” sistemi vasitəsilə həyata keçirilə bilər. Portalda müvafiq müsabiqə bölməsinə daxil olduqdan sonra “İştirak haqqı” bölməsində “Asan Ödəniş”lə ödə” düyməsini sıxaraq aidiyyatı keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edilə bilər.

**Ödənilmiş istifadə haqqı və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 36.1.1-ci maddəsinə uyğun olaraq satınalmanın baş tutmadığı hallar istisna olmaqla, iştirak haqqı heç bir halda geri qaytarılmır. Sözügedən Qanunun 36.1.1-ci və 36.1.6-cı maddəsinə əsasən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir. Qanunun 36.1.1-ci maddəsinə əsasən satınalmanın ləğv edildiyi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilmədiyi təqdirdə təchizatçıların müraciətinə əsasən iştirak haqqı geri qaytarılır.**

Təchizatçılar Kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. kotirovka sorğusu təklifi (zərfin açıldığı gündən ən azı 45 iş günü müddətində qüvvədə olmalıdır);
3. Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması və son [illegible] ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək [illegible]əsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə

**Qurumun adı:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
**Sənədin elektron imzalanma tarixi:** 24.12.2025
**Sənədin qeydiyyat nömrəsi:** XQ/17-2-5
**İmzalayan şəxs:** Məmmədova Elnurə Ramiz / Baş məsləhətçi
**Sənədin elektron yüklənmə ünvanı:** 83898e81-b275-40a5-8ffc-dba0cd8799fc
**Qeyd:** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının tətbiq edilməməsi ilə bağlı Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən arayış;

4. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd;

5. Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması ilə bağlı Təchizatçının özü tərəfindən hazırlanmış arayış;

6. Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi ilə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən arayış;

7. Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə inzibati cərimənin tətbiq edilməməsi ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən arayış;

8. Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi ilə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən arayış;

9. Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən arayış;

10. Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin və işçi qüvvəsinin olması ilə bağlı Təchizatçının özü tərəfindən hazırlanmış məlumat;

11. “Özəl tibb fəaliyyəti” üzrə (Epidemiologiya sahəsi üzrə) müvafiq lisenziya.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində tərcümələri notariat qaydasında təsdiq olunmalıdır.

Kotirovka sorğusu üzrə təkliflər 2026-cı il 12 yanvar saat 11:00-a qədər www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalı (bundan sonra - Portal) vasitəsilə təqdim edilməlidir. İddiaçıların təklif zərfləri 2026-cı il yanvar ayının 12-i saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər. Təkliflərə “Kotirovka sorğusunun şərtlər toplusu”nda nəzərdə tutulmuş digər sənədlər də əlavə olunmalıdır. Yuxarıda qeyd olunmuş sənədlər qiymət təklifi ilə birlikdə təqdim edilmədiyi təqdirdə namizədlər Təchizatçı kimi qəbul olunmayacaqlar.

EYD: Kotirovka sorğusunda iştirak və digər bütün prosedurlar yalnız elektron la Portal vasitəsilə aparılır.

**Satınalma komissiyası**

**Qurumun adı:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
**Sənədin elektron imzalanma tarixi:** 24.12.2025
**Sənədin qeydiyyat nömrəsi:** İXQ/17-2-5
**İmzalayan şəxs:** Məmmədova Elnurə Ramiz / Baş məsləhətçi
**Sənədin elektron yüklənmə ünvanı:** 83898e81-b275-40a5-8ffc-dba0cd8799fc
**Qeyd:** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.